MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

**UOT 793. 31**
**ORCID: 0000-0002-1280-1740**
**https://doi.org/10.52094/GHTI7126**

**Fazilə Nəbiyeva Ramiz qızı**
**Azərbaycan Milli Konservatoriyası**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru.**
**nabiyevafazilya@gmail.com**

# ÜZEYİR HACIBƏYLİNİN ELMİ-NƏZƏRİ İRSİNDƏ "BAYATI-ŞİRAZ" MƏQAMININ TƏZAHÜR ASPEKTLƏRİ

**Xülasə**: Məqalədə Ü.Hacıbəylinin elmi-nəzəri konsepsiyasından bəhs olunur. Onun yazdığı "Azərbaycan xalq musiqisinin əsasları" kitabının Azərbaycan musiqişünaslığının inkişafında müstəsna əhəmiyyətə malik olduğu vurğulanır. Bu əsərin XX əsrdə musiqi elminin inkişafinda yeni mərhələnin başlanğıcı olduğu diqqətə çatdırılır. Ü.Hacıbəylinin həmin kitaba dair əlyazmaları zəngin informasiya mənbəyi kimi səciyyələndirilir. Onlarda Azərbaycan musiqi elmi üçün bu gün də öz aktuallığını qoruyan çox maraqlı və dəyərli fikirlərin əksini tapdığı qeyd edilir. Həmin məsələlərdən başlıcasının məqam nəzəriyyəsi ilə bağlı olduğu bildirilir. Ü.Hacıbəylinin adı çəkilən əsərinin çoxsaylı və müxtəlif əlyazmalarında alimin elmi axtarışları, gələcək yaradıcılıq planları, məqam konsepsiyasının yaranma prosesi və inkişafı özünü aydın şəkildə əks edirdiyinə görə tədqiqatçıların diqqəti bu qiymətli işin arxiv mənbələrində qorunan variantlarına yönəldilir. Hazırki məqalədə onun kitabının 1945-ci il nəşrinə qədər rast, şur, segah, şüştər, hümayun, zabul və çahargah kimi məqamlar ilə bərabər, bayatı-isfahanın da əsas məqam kimi böyük alimin nəzəri konsepsiyasında öz əksini tapdığı göstərilir. Buna onun yuxarıda adı çəkilən kitabının AMEA-nın Əlyazmalar İnstitutunun arxiv fondlarında, ev muzeyinin arxivində qorunan əlyazmalarında, çap olunmuş "Azərbaycan Türklərinin musiqisi haqqında" adlı məqaləsində, habelə rus musiqişünaslarının əsərlərində də rast gəlməyin mümkün olduğu bildirilir. Lakin elmi yaradıcılıq axtarışları nəticəsində kitabın nəşr variantında Ü.Hacıbəylinin bayatı-isfahanı əsas məqamlar sırasına daxil etməyə ehtiyac duymadığı hazırki araşdırmada oxucuların nəzərinə çatdırılır.

**Açar sözlər**: Ü.Hacıbəyli, məqam nəzəriyyəsi, "Azərbaycan xalq musiqisinin əsasları" kitabı, bayatı-şiraz və bayatı-isfahan məqamları, əlyazma variantları, arxiv mənbələri

## Giriş

XX əsr Azərbaycan musiqi elminin inkişafi dahi Azərbaycan bəstəkarı və musiqişünası Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Onun "Azərbaycan xalq musiqisinin əsasları" kitabı etnomusiqişünaslıq sahəsində yeni mərhələ açmışdır. Üzeyir bəy bu əsərini 1945-ci il nəşrinə qədər dəfələrlə işləmiş və onu çoxillik zəhmətinin bəhrəsi kimi nəşrə təqdim etmişdir. Musiqi tarixindən də yaxşı məlumdur ki, Azərbaycan musiqişünaslığı sahəsində orta əsr musiqi tarktatlarının müstəsna əhəmiyyəti var. Lakin Ü.Hacıbəyli müəllifi olduğu kitabının bölmələrində toxunduğu mövzuları sələflərindən fərqli olaraq müasir təfsirdə işləmişdir. Onun "Azərbaycan xalq musiqisinin əsasları" elmi-fundamental əsəri üzərində apardığımız tədqiqatlar, eləcə də bu kitabın müxtəlif illərə aid əlyazmaları elmi fikrin inkişafı üçün olduqca maraqlı və çox dəyərlidir. "Azərbaycan xalq musiqisinin əsasları" kitabının müxtəlif illərə aid əlyazmalarında alimin elmi axtarışları, gələcək yaradıcı planları, məqam konsepsiyasının yaranma prosesi və inkişafı özünü aydın şəkildə əks edirmişdir. Ü.Hacıbəylinin həmin əsərinə dair əlyazmalarını zəngin informasiya mənbəyi kimi səciyyələndirmək olar. Onlarda Azərbaycan musiqi elmi üçün bu gün də öz aktuallığını qoruyan çox maraqlı fikirlər toplanmışdır. Həmin məsələlərdən başlıcası isə məqam nəzəriyyəsi ilə bağlıdır ki, bu mövzu cari vaxtda da elmi aktuallıq kəsb edir.

Üzeyir bəyin elmi yaradıcılığı daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Odur ki, müxtəlif dövrlərdə yaşamış musiqişünaslar bu mövzuda monoqrafiyalar, elmi məqalələr yazmışlar. Bizim isə bu tədqiqatı aparmaqda məqsədimiz Üzeyir bəyin elmi irsində "Bayatı-Şiraz" məqamının təzahür aspektlərini əks etdirməkdən ibarətdir. Tədqiqat apararkən ilkin olaraq müqayisəli təhlil metoduna əsaslanmışıq. Araşdırmanın metodoloji bazasını Ü.Hacıbəyli və onun yaratdığı musiqişünaslıq məktəbinin yeitrmələrinin əsərlərində işlənilmiş metodologiya əsas götürülmüşdür. Üzeyir bəyin həmin əsəri samballı tədqiqat işi olduğuna görə burada qoyulan məsələlər və onların şərhi bu monoqrafiyanın dərin araşdırmalara söykəndiyini deməyə əsas verir.

## Əsas hissə

Məlumdur ki, Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" kitabında yeddi əsas və üç əlavə məqamın nəzəri əsaslarını işləmişdir. Lakin onun müxtəlif illərə aid məqalələrində və əlyazmalarında rast, şur, segah, çahargah, hümayun, şüştər, zabul, bayatı-şirazdan başqa, bayatı-isfahanın da adı çəkilir. Bayatı-Şiraz Ü.Hacıbəylinin nəzəri konsepsiyasında əsas məqamlar sırasına daxildir. Böyük alim "Azərbaycan xalq musiqisinin əsasları" kitabında belə yazmışdır: "1 - 1 - 1/2 ton formulu üzrə qurulmuş və orta yarım ton vasitəsilə birləşmiş (üst tetraxordun birinci pərdəsinə nisbətən) iki bərabər tetraxord "Bayatı-Şiraz" ladının səsqatarını əmələ gətirir. Bu səsqatarında alt tetraxordun axırıncı pərdəsi ladın mayəsidir" [Hacıbəyov, Ü., 1985, s. 104]. Üzeyir bəy bayatı-şiraz məqamının səsqatarının ardıcıl kiçik sekstalar sırasından ibarət olduğunu vurğulamışdır. Qeyd edək ki, digər əsas məqamlar kimi, bayatı-şiraz da müəyyən inkişaf mərhələləri keçmişdir. Biz Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" kitabının müxtəlif illərə aid əlyazmalarında və ayrı-ayrı məqalələrindəki elmi fikirlərə əsasən bayatı-şiraz məqamının inkişaf mərhələlərini izləmişik. Tədqiq etdiyimiz 1933 və 1941-ci illərə aid əlyazmalarla kitab arasında olan fərqli cəhətləri aşkar etmişik. "Azərbaycan Türk xalq musiqisinin əsasları əsərinə dair materiallar" adlı mənbədə [Гаджибейли, У., 1933] bayatı-şiraz məqamının səsqatarı 1945-ci il nəşrində olduğu kimidir. Kitabda və əlyazmada göstərilən bayatı-şiraz məqamıının səsqatarı belədir.



Bununla yanaşı, nəşr variantı ilə əlyazma arasında fərqli cəhətlər da var ki, bu da pillələrin funksional izahı ilə bağlıdır. Onlar özünü V, VI pillələrdə göstərir. Əlyazmada göstərilən səsqatarının V pərdəsi ($d^1$) üst aparıcı ton və alt kvartanın kvintası funksiyasını daşıyır. Kitabda isə bu pərdə mayənin üst aparıcı tonu vəzifəsini görür. Əlyazmada səsqatarının VI pərdəsi ($es^1$) alt kvartanın kvintasının üst aparıcı tonu vəzifəsini yerinə yetirir. Kitabda isə bu pərdə mayənin üst mediantası vəzifəsini görür. Həmin pərdədən yuxarıya doğru kvintaya, aşağıya doğru isə mayəyə sıçrayış etmək olar.

1941-ci ilə aid əlyazma [Гаджибейли, У., 1941] ilə kitab arasındakı müqayisəli təhlilə əsaslanaraq belə qənaətə gəlirik ki, bu mənbədə də bayatı-şiraz məqamının səsqatarı yuxarıda göstərdiyimiz səsdüzümü ilə üst-üstə düşür. Həmin mənbələrdəki səsqatarlarının üst-üstə düşməsinə baxmayaraq pillələrin funksional izahında fərqli cəhətlər var. Onlar II, V, IX pillələrdə təzahür edir. Əlyazmada səsqatarının II pərdəsi ($a_k$) həm də ikinci tonika funksiyası daşıyır. Kitabda isə bu pərdə mayənin alt mediantası vəzifəsini görür. Əlyazmada V pərdədən ($d^1$) yuxarıya doğru sıçrayış kitabda olduğu kimidir. Lakin aşağıya doğru sıçrayışda isə müəyyən fərqlər nəzərə çarpır. Əlyazmada aşağıya doğru sıçrayış həm alt aparıcı tona, həm alt mediantaya, həm də alt kvartaya ola bilər. V pərdənin kitabda göstərilən funksional izahı barədə isə məlumat vermişik. Əlyazmada səsqatarının sonuncu, yəni IX pərdəsi ($as^1$) məqamın sərhəd tonu adlanır. Bu pərdədən sıçrayış ancaq aşağıya doğru üst kvartaya mümkündür. Kitabda isə bu pərdə mayə kvintasının üst aparıcı tonu vəzifəsini görür. Bu pərdədən ancaq mayənin üst kvartasına sıçrayış etmək olar. Kitabda və əlyazmada göstərilən mümkün olan sıçrayışlar cədvəli belədir.

"Azərbaycan xalq musiqisinin əsasları" kitabında [Hacıbəyov, Ü., 1985, s. 106].



1941-ci ilə aid əlyazmada (Гаджибейли, У., 1941)



Məlumdur ki, Üzeyir bəy adı çəkilən kitabın nəşrinə qədər rus musiqişünasları ilə elmi müzakirələr aparır və fikirlərini əsaslandırırdı. V.Vinoqradov 1938-ci ildə nəşr etdirdiyi bu əsərində azərbaycan ladlarının sırasında sol tonikalı bayatı-isfahanın da səsqatarını göstərmişdir [Виноградов, B., 1938, s. 37]. Həmin kitabdakı səsqatarı Ü.Hacıbəylinin əsərində göstərilən bayatı-şiraz məqamının səsdüzümü ilə uyğundur.

Üzeyir bəy elmi fikirlərini məqalələrində də işıqlandırmışdır. Alimin "Azərbaycan Türklərinin musiqisi haqqında" məqaləsində bayatı-şirazla yanaşı bayatı-isfahan adına da rast gəlirik [Hacıbəyli, Ü., 1919]. Məqalədə göstərilən bayatı-şiraz məqamının səsqatarı kitabda əks olunan səsdüzümü ilə uyğundur. "Azərbaycan musiqi həyatına bir nəzər" adlı məqalədə isə doqquz müstəqil kök kimi Rast, Segah, Şur, Çahargah, Şüştər, Zabul, Şahnaz, Hümayunla yanaşı, "Bayatı-Şiraz" ladının da adı çəkilmişdir [Hacıbəyov, Ü., 1965]. Onu da qeyd etmək lazımdır ki, 1933-cü ilə aid əlyazmada bayatı-şiraz məqamının tam və yarım kadansları konkret misallarla göstərilməyib [Гаджибейли, У., 1933]. Üzeyir bəy tonikanın II pərdəsində (d), tonikanın özündə (c) köməkçi tamamlayıcı tonda (a) və nəhayət tonikanın tersiyasında dayanmaqla yarım, alt mediantada (a) və tonikada (c) dayanmaqla isə tam kadansın əmələ gəldiyini qeyd etmişdir (**Bax: Cədvəl № 1**).

Sadalanan bütün fikirlərə əsaslanaraq qeyd edirik ki, Üzeyir bəy məqam konsepsiyasından bəhs edən adı çəkilən kitabını uzun illər ərzində təkmilləşdirərək və dəfələrlə cilalayaraq nəşrə təqdim etmişdir. Onun əlyazmalarında və çap edilmiş məqalələrində, həmçinin rus musiqişünas alimlərindən V.Vinoqradovun, V.Belyayevin elmi əsərlərində, o cümlədən məktublarında əsas məqamlar sırasında rast gəlinən zabul məqamı ilə yanaşı, bayatı-isfahan da sonradan müəllif tərəfindən onun nəzəri konsepsiyasından çıxarılmışdır. Beləliklə, hazırki məqalədə qarşımıza qoyduğumuz problemi müqayisəli tədqiqata cəlb edərək musiqi elmi ictimaiyyətinin ixtiyarına təqdim edirik. Düşünürük ki, hazırki tədqiqatda qabardılan bu problem gələcək araşdırmaların tədqiqat obyektinə çevrilməsilə Üzeyirşünaslığın inkişafı naminə geniş perspektivlər aça bilər.

| **Azərbaycan xalq musiqisinin əsasları kitabında** | | | **1933-cü ilə aid əlyazmada** | **1941-ci ilə aid əlyazmada** |
|---|---|---|---|---|
| **Pillə sayı** | **Not yazısı** | **Pərdələrin lad vəzifələri və onların sıçrayış imkanları** | | |
| I | | Mayənin alt kvartasıdır. Bu pərdədən yuxarıya doğru mayəyə sıçrayış etmək olar. | Eynidir. | Eynidir. |
| II | | Mayənin alt mediantasıdır. Bu pərdədən mayəyə və onun üst aparıcı tonuna sıçrayış etmək olar. | “____” | Həm də ikinci tonika funksiyası daşıyır. |
| III | | Mayənin alt aparıcı tonudur. Bu pərdədən mayənin üst aparıcı tonuna sıçrayış etmək olar. | “____” | “____” |
| IV | | Ladın mayəsidir. Bu pərdədən yuxarıya doğru kvarta və kvintaya, aşağıya doğru isə medianta və kvartaya sıçrayış etmək olar. | “____” | “____” |
| V | | Mayənin üst aparıcı tonudur. Bu pərdədən yuxarıya doğru mayənin kvarta və kvintasına, aşağıya doğru isə mayənin alt aparıcı tonuna sıçrayış etmək olar. | Üst aparıcı ton və alt kvartanın kvintasıdır. | Bu pərdədən yuxarıya doğru sıçrayış kitabda olduğu kimidir. Aşağıya doğru sıçrayış isə həm alt aparıcı tona, həm alt mediantaya, həm də alt kvartaya ola bilər. |
| VI | $es^1$ | Mayənin üst mediantasıdır. | Alt kvartanın kvintasının üst aparıcı tonudur. | “____” |
| VII | $f^1$ | Mayənin üst kvartasıdır. Bu pərdədən aşağıya doğru mayənin üst aparıcı tonuna mayəyə sıçrayış etmək olar. | “______” | “____” |

| | | | | |
|---|---|---|---|---|
| VIII | $g^1$ | Mayənin kvintasdır. Bu pərdədən aşağıya doğru mayənin üst mediantasına, üst aparıcı tonuna və mayəyə sıçrayış etmək olar. | “______” | “____” |
| IX | $as^1$ | Mayə kvintasının üst aparıcı tonudur. Bu pərdədən ancaq mayənin üst kvartasına sıçrayış etmək olar. | “______” | Ladın sərhəd tonudur. Bu pərdədən sıçrayış ancaq aşağıya doğru üst kvartaya mümkündür. |

## Ədəbiyyat siyahısı

1. Hacıbəyli, Ü.Ə. Azərbaycan türklərinin musiqisi haqqında. // İstiqlal – 1919. (Təqdim edən, ön söz və lüğətin müəllifi F.Əliyevadır. B.: Adiloğlu. 2005, 74 s.) S. 254-258.
2. Hacıbəyov, Ü.Ə. (1965). Əsərləri, 10 cilddə, II cild, Red: (M.İbrahimov.) Bakı: Az. SSR Elm. Akademiyasının nəşriyyatı. 412 səh. Tərtibat, kommentariya və lüğət Q.Qasımovundur.
3. Hacıbəyov, Ü.Ə. (1985). Azərbaycan xalq musiqisinin əsasları. Bakı: Yazıçı. 151 səh.
4. Üzeyir Hacıbəyov. “Azərbaycan xalq musiqisinin əsasları”. URL: http://musbook.musigi-dunya.az/
5. Гаджибейли, У.А. (1933). Материалы по основам азербайджанской тюркской народной музыки. (I часть). Рукопись.. Институт рукописей им. М.Физули НАНА. Фонд 17, Архив 22, Ед. хр 103.
6. Гаджибейли, У.А. (1941). Основы азербайджанской народной музыки. Рукопись. Фонд архива дом музея Узеира Гаджибейли.
7. Виноградов, В.В. (1938). Узеир Гаджибеков и Азербайджанская музыка. М.: Музгиз, 178 с.

**Фазиля Набиева Рамиз кызы**

## Аспекты проявления макама «баяты-шираз» в научно-теоретическом наследии Узеира Гаджибейли

**Резюме:** В статье рассматривается научно-теоретическая концепция У.Гаджибейли. Подчеркивается исключительное значение его книги «Основы Азербайджанской народной музыки» в развитии Азербайджанского музыкознания. Отмечается, что этот труд ознаменовал начало нового этапа в развитии музыкознания в XX веке. Рукописи У.Гаджибейли, посвященные этой книге, характеризуются как богатый источник информации. Отмечается, что они отражают весьма интересные и ценные идеи, которые и сегодня актуальны для Азербайджанского музыкознания. Главным из этих вопросов считается вопрос теории макама. Поскольку многочисленные и разнообразные рукописи упомянутого труда У. Гаджибейли наглядно отражают научные поиски ученого, его дальнейшие творческие планы, процесс создания и развития концепции макама, внимание исследователей привлекается к сохранившимся в архивных источниках вариантам этого ценного труда. В статье показано, что наряду с такими макамами, как «раст», «шур», «сегях», «шуштер», «хумаюн», «забул» и «чахаргях», в теоретической концепции великого ученого в качестве основного макама вплоть до выхода в свет его книги в 1945 году находил отражение и «баяты-исфахан». Сообщается, что это можно найти в архивных фондах Института рукописей НАНА, в рукописях, хранящихся в архиве дома-музея, в опубликованной статье «О музыке Азербайджанских тюрков», а также в трудах российских музыковедов. Однако, в результате научно-творческих поисков, настоящее исследование доводит до сведения читателей, что У.Гаджибейли не счел нужным включать баяты-исфахан в число основных пунктов опубликованной версии книги.

**Ключевые слова:** У. Гаджибейли, макамная теория, книга «Основы Азербайджанской народной музыки», макам Баяты-Шираз и Баяты-Исфахан, варианты рукописей, архивные источники

**Fazila Ramiz gizi Nabiyeva**

## Manifestation Aspects of the "Bayati-Shiraz" Makam in the Scientific and Theoretical Heritage of Uzeyir Hajibeyli

**Summary:** This article examines the scientific and theoretical concepts of U.Hajibeyli. The exceptional significance of his book "Fundamentals of Azerbaijani Folk Music" in the development of Azerbaijani musicology is emphasized. It is noted that this work marked the beginning of a new stage in the development of musicology in the 20th century. U. Hajibeyli's manuscripts dedicated to this book are characterized as a rich source of information. It is noted that they reflect very interesting and valuable ideas that remain relevant to Azerbaijani musicology today. The most important of these issues is considered to be the theory of makam. Since the numerous and varied manuscripts of U. Hajibeyli's aforementioned work clearly reflect the scholar's scientific research, his future creative plans and the process of creating and developing the concept of makam, researchers' attention has been drawn to the versions of this valuable work preserved in archival sources. The article shows that along with such makams as "rast", "shur", "segah", "shushter", "humayun", "zabul" and "jahargah" "Bayat-İsfahan" had also been reflected in the theoretical concept of the great scientist as the main makam until the publication of his book in 1945. It is reported that this can be found in the archival collections of the ANAS in manuscripts stored in the archive of the house-museum, in the published article "About Music of the Azerbaijani Turks", as well as in the works of Russian musicologists. However, as a result of scientific and creative research, this study brings to the attention of readers that U. Hajibeyli did not consider it necessary to include Bayati-İsfahan among the main points of the published version of the book.

**Key words:** U.Hajibeyli, makam theory, book "Fundamentals of Azerbaijani Folk Music", makam Bayati-Shiraz and Bayati-Isfahan, manuscript variants, archival sources

Məqalənin redaksiyaya daxilolma tarixi: 09.12.2025
Məqalənin çapa qəbul olunma tarixi: 11.12.2025